

# Zəhra ŞƏMSİYYƏ

Üzüntü,
Həyəcan,
Qızardı üzüm.
Dilim kəlmə kəsə bilmədi hətta,
Sanki uçub yerə düşdü ulduzum,
Yoluma sərilib yatmıştək xəta.

Sonu bərk, getdiyim həmin küçənin
Büzüşüb qalmışam, güclə gedirəm.
Hava azlıq edir, ürək əzabda,
Nicata səssizcə ümid edirəm.

Addımın – tökülən yarpaq xışıldar,
Nəfəsin – havadır, azadlıqdır... Ah!
Köksümdə ürəyim səssizcə vurar,
Məni xətalardan qorusun Allah!

Gecikdin, gecikdim, gəlməyin aləm,
Səssiz baxışların, gülməyin aləm.
Mənsiz çətinliyi bilməyin aləm,
Bizi xətalardan qorusun Allah!

Üzüntü,
Odlanmaq,
Hicran bir yana,
Sən başqa tərəfsən, mən başqa tərəf.
Baxırsan, baxıram, yaş tökür könül,
Könlündə bir ömür yer tutmaq şərəf.

Dilimə başqa söz gəlməz ki, illah –
Bizi xətalardan qorusun Allah!
Zührə Qurban Şəhrisəbziyyə

Tərcümə etdi: Rəhmət Babacan
Türküstan2022 24-30mayS.12